# “İpək yolu”: daha bir əfsanə gerçəkliyə çevrildi

## Çindən yola düşən ilk yük qatarı Azərbaycan üzərindən Türkiyəyə tarixi “İpək yolu” ilə yükdaşıyanlara yenidən yol açdı



**Beynəlxalq Transxəzər Nəqliyyat Dəhlizi (Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Türkiyə) ilə hərəkət edən üçüncü konteyner qatarı dekabrın 12-də Bakıya, dünən isə Gürcüstana çatıb. Çinin Lyanunqan vilayətindən yola düşən “İpək yolu”nun ilk qatarı Tbilisidən Poti limanına yola salınıb. İstər Bakıda, istərsə də Gürcüstanda 21 vaqondan ibarət üçüncü konteyner qatarı böyük coşqu ilə qarşılanıb. Xüsusilə də Qazaxıstan və Azərbaycandan keçməklə Tbilisiyə gəlib çatan tranzit yükdaşıma qatarının qarşılanma mərasimi daha yaddaqalan olub. Belə ki, Tbilisidə Çindən gələn Qatar üçün rəsmi qarşılanma mərasimi keçirilib. Tbilisi dəmir yolu vağzalında qatarı Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Azərbaycanın bu ölkədəki səfiri Azər Hüseyn, “Azərbaycan Dəmir Yolları” QSC-nin sədr müavini İqbal Hüseynov, eləcə də Qazaxıstan, Türkiyə və Çinin səfirləri, digər rəsmi şəxslər qarşılayıblar.**

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Çindən gələn ilk tranzit yük qatarının qarşılanması mərasimində “İpək yolu” layihəsinin əhəmiyyətindən söz açıb. Bildirib ki, bu layihə çərçivəsində Gürcüstan multiregional mərkəzə çevriləcək və tezliklə Çinin şərqindən başlayaraq Qazaxıstan, Azərbaycan və Gürcüstandan keçməklə Avropaya yüklər daşınacaq. Gürcüstana qədər 3 ölkənin (Çin, Qazaxıstan və Azərbaycan) ərazisindən keçib gələn qatarın buradan (Gürcüstandan) 5-ci ölkəyə (Türkiyəyə) yol salınacağını qeyd edən Baş nazir Tbilisidə tranzit yük qatarının simvolik olaraq Gürcüstan, Azərbaycan, Türkiyə, Qazaxıstan və Avropa İttifaqının bayraqları ilə bəzədilməsinə görə sevincini gizlədə bilmədiyini vurğulayıb.

### Çindən Azərbaycana...

“Mən çox şadam ki, bu gün bizim tranzit yük qatarımız simvolik olaraq Gürcüstan, Azərbaycan, Türkiyə, Qazaxıstan və Avropa İttifaqı bayraqları ilə bəzədilib. Biz 8-10 günə yükləri Gürcüstanda qəbul edib 3-4 gün ərzində Avropanın digər ölkələrinə göndərə bilərik. “İpək yolu” ucuz və qısa yoldur. Bu yolla Asiyadan Avropaya məsafə 5 dəfə qısaldılmış olacaq. Bizim ölkə “İpək yolu” marşrutunu daha da qısaldır və bu bizə dünya iqtisadi həyatında əlavə şans verir. İnanıram ki, bu layihə təkcə Gürcüstana yox, həm də tərəfdaş olduğumuz ölkələrə daha çox investisiya, stabillik, məşğulluq və rifah gətirəcək. İnanıram ki, “İpək yolu” layihəsi çərçivəsində Gürcüstan multiregional mərkəzə çevriləcək və Avropanı Şərqi Asiya, Hindistan, Mərkəzi Asiya və Orta Şərqə birləşdirəcək" - deyə, İrakli Qaribaşvili bu tarixi yolun yenidən işə düşməsi ilə bağlı sevincini bölüşüb.

Baş nazir “İpək yolu” layihəsinin Çin prezidenti tərəfindən irəli sürüldüyünü və bu barədə iki il Gürcüstanla bağlı məsələlər barədə danışıqlar aparıldığını, həmçinin 32 ölkədən 1000 nəfərin iştirakı ilə forum keçirildiyini və memorandum imzalandığını bildirib.

### ...Azərbaycandan Gürcüstana...

Tədbirdə Çinin Gürcüstandakı səfiri, “Gürcüstan Dəmir Yolları” idarəsinin baş direktoru, “Qazaxıstan Dəmir Yolları” İdarəsinin rəsmisi, “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini İqbal Hüseynov çıxış edərək tranzit yük qatarının ilk reysini tarixi hadisə adlandırıblar. Qeyd olunub ki, 2020-ci iləd ək “İpək yolu” layihəsi çərçivəsində Çin və Türkiyə arasında ticarət potensialı 200 milyard dolları dək artacaq.

“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini İqbal Hüseynov bildirib ki, bu qatar “İpək Yolu” çərçivəsində ilk tranzit qatarıdır. Onun sözlərinə görə, Asiya ilə Avropanı birləşdirən nəqliyyat dəhlizi sayəsində Çinin şərq vilayətindən göndərilən yük tranzit ölkələrdən keçməklə cəmi iki həftə ərzində, maksimum 14-15 günə İstanbula çatacaq: “Halbuki əvvəllər dəniz yolu bu yüklərin İstanbula göndərilməsi 40-45 gün çəkirdi. Əvvəllər belə qatarlar 40-45 gün müddətində Bəndər-Abbas və Poti limanları vasitəsilə daşınırdısa, indi bu layihə ilə yüklərin daşınma müddəti cəmi iki həftəyə reallaşır. İlin sonunadək bu nəqliyyat dəhlizi Çindən daha bir tranzit yük qatarını qəbul edəcək. Gələn il isə layihə çərçivəsində əlavə olaraq bir neçə min konteyner daşınması planlaşdırılır. Bu layihə dost və qardaş ölkələr olan Gürcüstanla Azərbaycanın tranzit potensialını əhəmiyyətli dərəcədə yüksəldəcək. Biz regionun digər iri layihələrində Gürcüstan və Türkiyə ilə tərəfdaş olduğumuz kimi, Beynəlxalq Transxəzər Nəqliyyat Dəhlizi layihəsində də birgə əməkdaşlıqdan çox məmnunuq”.

Sonra Gürcüstan Baş nazirinin, Çinin bu ölkədəki səfirinin və Gürcüstan Dəmir Yolu İdarəsinin rəhbərinin iştirakı ilə tranzit yük qatarının açılış lenti kəsilib. Bunun ardınca tranzit yük qatarı Tbilisidən Potiyə yola düşüb.

### ...Gürcüstandan Türkiyəyə

Çinin Lyanunqan vilayətindən yola düşən üçüncü konteyner qatarının yola çıxması Transxəzər marşrutu ölkələrinin (Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Türkiyə) dəmir yolları rəhbərlərinin Beynəlxalq Transxəzər Nəqliyyat Dəhlizinin inkişafı üzrə Koordinasiya Komitəsinin iclaslarında əldə etdikləri çevik tarif siyasəti və əlverişli texniki şəraitin yaradılması ilə bağlı danışıqların nəticəsidir. Bu marşrut üzrə tranzit yükdaşımaları “Qazaxıstan Dəmir Yolları” SC, “Çin Dəmir Yolları” (ÇSR) “Azərbaycan Dəmir Yolları” QSC, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ilə birgə həyata keçirilir. Layihə çərçivəsində tranzit və xarici yüklərin cəlb olunması, rəqabətə davamlı vahid tariflərin tətbiqi və daşınan yüklərin həcminin artırılması işinə təşkilati yanaşma işlərinin həyata keçirilməsi nəzərdə tutulub. Bu il avqustun 3-də “Şixezi (Çin)-Dostluq-Aktau-Ələt limanı” marşrutu üzrə hərəkət edən ilk sınaq konteyner qatarı Bakı Beynəlxalq Dəniz Ticarət Limanına gəlmişdi. Çin Xalq Respublikasının Sintszyan Uyğur Muxtar Vilayətinin Alaşanko eksport stansiyasından çıxan 44 ədəd vaqondan ibarət olan ikinci konteyner qatarı sentyabrın sonunda Azərbaycan ərazisindən tranzit olaraq keçməklə, 8 gün ərzində Gürcüstanın Tbilisi Uzlovaya stansiyasına çatmışdı.

### Tərəfdaş ölkələr birgə layihələri dəstəkləyir

Yeri gəlmişkən, gələn həftə Tbilisidə Azərbaycan, Gürcüstan və Türkiyə xarici işlər nazirlərinin növbəti üçtərəfli görüşü keçiriləcək. Görüşdə üç ölkə arasında əlaqələrin hərtərəfli inkişaf perspektivləri, eləcə də son günlər üçün ən aktual olan məsələlərin müzakirəsi nəzərdə tutulub. Belə ki, üç ölkə arasında strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlıq məsələlərinin müzakirəsi zamanı Bakı-Tbilisi-Qars dəmir yolu tikintisinin vəziyyəti və “İpək Yolu” layihəsi üzrə əməkdaşlıq çərçivəsində digər nəqliyyat-logistika layihələri də diqqət mərkəzində olacaq.

Çin Türkiyə, Qazaxıstan, Azərbaycan və Gürcüstanla birgə noyabrın 30-da yük daşınmaları məqsədi ilə konsorsium təsis etmək haqqında qərar qəbul edib. Bu barədə müvafiq razılaşma tərəflər arasında noyabrın 28-i İstanbulda imzalanıb. Razılaşma “Azərbaycan Xəzər Dənizi Gəmiçiliyi” QSC və Azərbaycanın “Karvan logistik” şirkəti ilə yanaşı Çinin “Mishgeng Logistics” şirkəti, “Qazaxıstan Dəmir Yolları”nın törəmə “KTJ ekspress” müəssisəsi, həmçinin “Gürcüstan Dəmir Yolları”nın törəmə strukturu “Trans Caucasus” Terminalı ilə əldə olunub. Türkiyə tərəfi konsorsiumda assosiasiyalaşdırılmış üzv kimi təmsil olunur. Sənəddə qeyd olunur ki, razılaşmaya əsasən, Çindən daşınan yüklər Rusiya ərazisindən yan keçəcək.

Ötən həftə Çinə səfəri zamanı Prezident İlham Əliyev “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqi və iki ölkənin dəmir yolları arasında əməkdaşlıqla bağlı müqavilə imzalayıb. Dövlət başçısı İlham Əliyev Çin Xalq Respublikasının sədri Si Cinpinlə geniş tərkibdə görüşündə bildirib ki, Azərbaycanın Çin və Avropa arasında mühüm tranzit dəhlizi rolunu oynaması üçün yaxşı potensial var. Azərbaycanda infrastrukturun yaradılması, nəqliyyat sisteminin təkmilləşdirilməsi istiqamətində çox böyük işlər görüldüyünü qeyd edən Prezident İlham Əliyev Çin dövlətini və iş adamlarını investisiya qoyuluşu sahəsində əməkdaşlığa dəvət edib. Qeyd edib ki, Azərbaycanda yenicə qurulmuş texnoparklarda Çin şirkətləri öz bizneslərini qura bilər.

**Elxan Salahov**